Azərbaycan Texniki Universitetinin Elmi
Şurasının 5 iyul 2025-ci il
tarixli iclasının qərarı ilə qəbul edilmişdir.
(protokol № 8 )

Azərbaycan Texniki Universitetinin Yüksək Təhsil İnstitutunun

# ƏSASNAMƏSİ

## 1.Ümumi müddəalar

1.1.Yüksək Təhsil Institutu (bundan sonra - İnstitut) Azərbaycan Texniki Universitetinin (bundan sonra - Universitet) tərkibində ali təhsilin magistratura və doktorantura səviyyələrində tədris, tədqiqat fəaliyyətini koordinasiya edən struktur bölməsidir.

1.2.İnstitut Universitetin Elmi Şurasının qərarı ilə yaradılır və ləğv edilir.

1.3.İnstitut "Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli 833- IIIQ nömrəli və "Elm haqqında" Azərbaycan Respublikasının 14 iyun 2016-cı il tarixli 271- VQ nomrəli Qanunlanını, digər qanunvericilik aktlarını, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr venimәsi qaydası haqqında Əsasnamə"ni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli, 129 nömrəli Qərari ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması va doktoranturaya qəbul Qaydaları"nı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08 fevral 2017-ci il tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul Qaydaları"nı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 may 2010-cu il tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydalarını", Azərbaycan Respublikası Təhsil Nazirinin 10.11.1998-ci il tarixli 742 nömrəli əmri ilə təsdiq edilmiş "Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşdırılmış Elmi şuralar haqqında Əsasnamə"ni, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarlarını, əmr və sərəncamlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin ali təhsillə bağlı aidiyyatı qərarlarını, əmr və sərəncamlarını, Azərbaycan Texniki Universitetinin Nizamnaməsini, Universitet rektorunun əmr və sərəncamlarını, Universitet Elmi şurasının qərarlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4.İnstitut öz vəzifələrini yerinə yetirən və hüquqlarını həyata keçirən zaman Universitetin fakültə, institut va kafedraları, elmi-tədqiqat laboratoriyaları və digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. İnstitutun ümumi fəaliyyət istiqamətləri və vəzifələri

2.1.İnstitut mövcud qanunvericilik çərçivəsində ali təhsilin magistratura (o cümlədən MBA, Türk Mühəndislik və Menecerlik Məktəbi (TMMM) və SABAH magistratura proqramları) və doktorantura səviyyələrində təhsil, tədqiqat və tədris prosesinin təşkilini koordinasiya edir. İnstitut bu məqsədlə aşağıdakı vəzifələri yerinə yetirir:

2.1.1.Ali təhsilin magistratura və doktorantura səviyyələri üzrə tədris prosesini və elmi-tədqiqatı işlərinin yerinə yetirilməsini təşkil etmək;

2.1.2.Ali təhsiin magistratura və doktorantura səviyyələrində təhsil alan tələbələrə elmi rəhbərlərin və dissertasiya mövzularının təsdiq edilməsini işini təşkil etmək;

2.1.3.Mövcud qanunvericilik çərçivəsində magistr dissertasiyalarının hazirlanması və müdafiə olunması ilə bağlı cari işləri təşkil etmək;

2.1.4.Magistratura təhsil səviyyəsi üzrə elmi-pedaqoji və elmi-tədqiqat təcrübələrinin həyata keçirilməsi ilə bağlı prosesləri təşkil və nəzarət etmək;

2.1.5.Magistrantların və doktorantların hərəkətliliyi ilə bağlı prosesləri izləmək;

2.1.6.Magistratura səviyyəsində, o cümlədən MBA, Türk Mühəndislik və Menecerlik Məktəbi (TMMM) və Azərbaycan Respublikası Təhsil Nazirliyinin "SABAH Magistratura" proqramı çərçivəsində mövcud əmək bazarının tələbləri nəzərə alınmaqla mütəxəssis yetişdirmək;

2.1.7.AzTU-nun işə qəbul qaydaları əsas götürülməklə, aidiyyəti struktur bölmələri birgə tədris üçün müəllimlərin işə qəbulunu təşkil etmək;

2.1.8.Magistratura təhsil səviyyəsi üzrə tədris proqramları, planları, tədris yükləri və digər zəruri tədris sənədlərininin hazırlanması işini koordinasiya etmək;

2.1.9.Magistrantların, doktorantların sənəd qəbulunu və onlarla bağlı digər zəruri sənədləşmə işlərini həyata keçirmək;

2.1.10.Məzunların qeydiyyatını və onlarla əlaqələrin qurulmasını təmin etmək;

2.1.11.Magistrantların AzTU-nun əməkdaşlıq etdiyi müəssisələrdə təcrübə keçməsi işini təşkil etmək;

2.1.12.Tədrisin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə AzTU-nun digər struktur bölmələri ilə birgə rüblük, yarımillik və illik əsasda proqramların müəllim və tələbələri arasında sorğu və digər qiymətləndirmə işləri aparmaq;

2.1.13.İnstitutun illik hədəflərini və onlarla bağlı fəaliyyət planlarını hazırlamaq, AzTU rəhbərliyinə təsdiq üçün təqdim etmək, habelə onlarla əlaqədar illik icra hesabatlarını AzTU rəhbərliyinə təqdim etmək;

2.1.14.Magistratura səviyyəsində təhsil proqramlarının ölkə və beynəlxalq səviyyədə akkreditasiyasını həyata keçirmək;

2.1.15.AzTU-nun rəsmi internet saytında və sosial şəbəkə ünvanlarında müvafiq məlumatların yerləşdirilməsini və mütəmadi yenilənməsini təmin etmək;

2.1.16.İnstitutun professor-müəllim və magistrant heyəti arasında akademik dürüstlüyün təşviqi, akademik müstəqilliyin qorunması üçün tədbirlər görmək və plagiarizm hallarına qarşı mübarizə aparmaq;

2.1.17.Doktoranturaya ixtisas fənləri üzrə qəbul imtahanlarını təşkil etmək;

2.1.18.Doktorantlara elmi rəhbər və elmi məsləhətçiləri təyin etmək və dissertasiya mövzularını təsdiqi işini təşkil etmək;

2.1.19.Doktorantlarin attestasiyasının keçirilməsini təşkil etmək;

2.1.20.Dissertasiya işinin hazirlanması və ilkin müzakirəsi ilə bağlı təşkilati işləri həyata keçirmək;

2.1.21.Doktorluq imtahanlarının verilməsi üçün ixtisaslar üzrə yaradılan komissiyaların tərkibinin hazırlanması və imtahanların keçirilməsi prosesini təşkil etmək.

## 3. Magistratura təhsil səviyyəsində elmi tədqiqatın təşkili üzrə İnstitutun vəzifələri

3.1. MBA Proqramı istisna olmaqla, digər magistratura proqramlarında təhsil alanlar məcburi qaydada dissertasiya işi yazmalıdır. İnstitut magistrantların dissertasiya mövzularının seçimi, elmi rəhbərlərin təyin olunması, dissertasiya işlərinin yazılması və müdafiəsi ilə bağlı inzibati işləri təmin edir.

3.2.İnstitut magistrlik dissertasiyalarının müdafiəsi üçün ixtisaslaşmış şuralar yaradılması, müdafiələrin keçirilməsi və müdafiədən sonrakı prosedurlar ilə bağlı təşkilati işləri həyata keçirir.

3.3.İnstitut 3.1 və 3.2. bəndlərində göstərilmiş işləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”ı əsasında hazırlanmış və AzTU-nun Elmi Şurası tərəfindən təsdiq olunmuş “Magistrlik dissertasiyalarının yerinə yetirilməsi üçün metodiki göstəriş”ə uyğun təşkil edir.

**4. Doktorantura Proqramları üzrə elmi tədqiqatın təşkili üzrə İnstitutun vəzifələri**

4.1.Doktorantura proqramı doktoranta müstəqil tədqiqat aparmaq, elmi problemləri və məlumatları geniş və əhatəli təhlil etmək və yeniliklərə çatmaq üçün lazımi bacarıqları təmin edir.

4.2.Doktoranturada təhsil müddətində hazırlanacaq dissertasiya işi, elmə yenilik gətirmə, yeni bir elmi metod inkişaf etdirmə və mövcud bir metodu yeni bir sahəyə tətbiq etmə tələblərindən ən azı birini yerinə yetirməlidir və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin müvafiq qərarları ilə tənzimlənir.

4.3.İnstitut çərçivəsində doktoranturaya qəbul və doktoranturada təhsilin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları" əsasında həyata keçirilir.

4.4.İnstitut doktorantların ildə bir dəfədən az olmamaq şərtilə, AzTU-nun Elmi şurası tərəfindən təsdiq olunmuş "Doktorantların attestasiyası haqqında Əsasnamə"yə uyğun olaraq, attestasiyadan keçməsini təşkil edir.

4.5.İnstitut doktorantların dissertasiya işlərinin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qəbul edilmiş qaydalara uyğun olaraq hazırlanmasına nəzarət edir.

4.6.İnstitut dissertasiya işlərinin ilkin müzakirələrinin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"də və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 2010-cu il 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında qaydalarda qoyulan tələblər gözlənilməklə həyata keçirilməsinə nəzarət edir.

4.7.Doktorluq dissertasiyasının müdafiəsi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş

"Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat"a uyğun olaraq həyata keçirilir.

## 5. İnstitutun hüquqları

İnstitutun öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

5.1.İnstitutda vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Universitetin struktur bölmələrinə sorğular ünvanlamaq və onlardan məlumatları almaq;

5.2.İnstitutun fəaliyyəti ilə bağlı Universitetin başqa struktur bölmələrinə icrası tələb olunan məsələlərlə bağlı təkliflər vermək;

5.3.İnstitutun funksional fəaliyyəti ilə bağlı aidiyyati struktur bölmələrindən əməkdaşlardan, mütəxəssislərdən və ya müraciət edənlərdən zəruri sənədlərin və məlumatların təqdim olunmasını tələb etmək;

5.4.İnstitutun fəaliyyət sahələrinə aid olan məsələlərlə bağlı Universitetin Elmi şurasına təkliflər vermək;

5.5. AzTU-nun nəzdində müvafiq ixtisaslar üzrə dissertasiya şuralarının yaradılması ilə bağlı Ali Attestasiya Komissiyasına teqdim etmək üçün rektorun adına təkliflər hazırlamaq;

5.6.AzTU-nun nəzdində fəaliyyət göstərən dissertasiya şuralanının iclaslarında iştirak etmək;

5.7.Doktorluq dissertasiyası mövzularının AMEA-nın nəzdində fəaliyyət göstərən əlaqələndirmə şuralarında qeydiyyata alınması işini təşkil etmək;

5.8.İnstitutun fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini araşdırmaq və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq;

5.9.İnstitutun fəaliyyəti barədə təkliflər hazırlamaq.

## 6. İnstitutun fəaliyyətinin təşkili

6.1.İnstitutun idarəetmə orqanına Universitetin rektorunun əmri ilə təsdiq olunmuş aşağıdakılar daxildir:

6.1.1.İdarə Heyəti

6.1.2.Direktor

6.1.3.İnstitut Şurası

6.2.İnstitutun strukturu və ştat vahidlərinin sayı Universitetin rektoru tərəfindən təsdiq edilir.

6.3.İnstituta Universitetin rektorunun əmri ilə təyin olunmuş direktor rəhbərlik edir.

6.4.Direktor öz fəaliyyətini Universitetin rektoru tərəfindən təsdiq olunmuş vəzifə təlimatına əsasən həyata keçirir və ildə bir dəfədən az olmamaqla AzTU-nun Elmi Şurasına hesabat verir.

6.5.İdarə Heyətinin fəaliyyətinin təşkili və vəzifələri:

6.5.1.İdarə Heyəti ictimai əsaslarla fəaliyyət göstərir.

6.5.2.Universitetin strateji inkişaf planına və elmi-tədqiqat və unnovasiya fəaliyyəti barədə strateji inkişaf planınana uyğun olaraq YTİ-nin fəaliyyətinin qurulmasını təmin edir;

6.5.3.Universitetin elmi-tədqiqat fəaliyyətinin əsas prioritet tədqiqat mövzularına uyğun dissertasiya mövzuların müəyyən olunması işini təşkil edir;

6.5.4.Aparılan tədqiqat işlərinin sənaye əhəmiyyətli olması üçün lazımi tədbirlər görmək və tətbiqi üçün lazımi tədbirlər həyata keçirir;

6.5.5.Əmək bazarı, sənaye müəssisələri ilə tərəfdaşlıq əlaqələrini təşkil edir;

6.5.6.İdarə Heyətinin tərkibi 5 üzv AzTU-dan, 6 üzv sənaye müəssislərindən olmaqla 11 nəfərdən təşkil edilir;

6.5.7.AzTU-dan olan üzvlər rektorun əmri ilə müvafiq sahələrin təmsilçiliyi əsasında təyin olunur. Onlardan bir nəfər Rektorun əmri ilə İdarə Heyətinin sədri təyin olunur.

6.5.8. İdarə Heyətinin üzvləri 1 (bir) il müddətə təyin olunur. İdarə heyətinin üzvləri barədə hər il rektorun müvafiq əmri verilir.

6.6. Direktor:

6.6.1.İnstitutun işini təşkil edir və ona rəhbərlik edir;

6.6.2.Əsasnamədə nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsinə görə birbaşa məsuliyyət daşıyır;

6.6.3.İnstitutun fəaliyyəti haqqında dövrü hesabatları İdarə Heyətinə təqdim edir;

6.6.4.İnstitutun işçiləri arasında vəzifə bölgüsünü aparır ve onların qarşılıqlı fəaliyyətlərini təmin edir;

6.6.5.İnstitutun əməkdaşlarının stimullaşdırılmasına dair təklifləri hazırlayır və rəhbərliyə təqdim edir;

6.7. İnstitutun Şurası

6.7.1. İnstitut Şurası Universitetin rektorunun əmri ilə təsdiq edilir və tərkibi bir qayda olaraq, İnstitutun direktoru, Universitetin ixtisas kafedralarının müdirləri və aparıcı professorlarından olmaqla 11 nəfərdən ibarət formalaşdırılır;

6.7.2.İnstitut Şurasına sədrliyi direktor həyata keçirir;

6.7.3.İnstitut Şurası 3 il müddətinə formalaşdırılır,

6.7.4.İnstitut Şurasında koordinasiya və təşkilati işlərin aparılması üçün şuranın sədri (direktor), sədr müavini və elmi katibdən ibarət tərkib müəyyən edilir. Sədr müavini və elmi katib direktorun təklifi ilə şurada seçilir;

6.7.5.İnstitut Şurasının mütəmadi olaraq hər semestrin əvvəlində və sonunda iclası keçirilir;

6.7.6.İnstitut Şurası təhsil-tədris, elmi tədqiqat va nəşr fəaliyyətləri və bu fəaliyyətlərlə bağlı işləri, plan, proqram və təhsil-tədris təqvimini müəyyənləşdirir;

6.7.7. Zəruri hallarda lazımi fəaliyyətin həyata keçirilməsi üçün müvəqqəti işçi komissiyaların yaradılması barədə rektora təkliflər verir, qrup və komissiyaların yaradılması barədə rektora təkliflər verir;

6.7.8.Magistratura və doktoranturada təhsilin keyfiyyətinin artırılması üçün qısa və uzunmüddətli fəaliyyət planları hazırlayır;

6.7.9. Rektorun verdiyi digər vəzifələri yerinə yetirir.

## 7. İnstitutun məsuliyyət əsasları

7.1.İnstitut qanunvericilik normalarının düzgün tətbiqi və səlahiyyətləri dairəsinə aid edilən işlərinin vaxtında, tam formada təşkilinə və icrasına görə məsuliyyət daşıyır;

7.2.İnstitutun direktoru və əməkdaşları öhdəliklərinə aid olan bütün sənədlərin Azərbaycan Respublikasının qanunvericilik aktlarına və Universitetin Nizamnaməsində nəzərdə tutulmuş müddəalara uyğun formada hayata keçirilməsinə görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyır.